

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 227 (23.389)

3 dekabr 2019-cu il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də CISCO şirkətinin qlobal innovasiyalar üzrə vitse-prezidenti Qay Didrixin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham Əliyev deyib: – Biz dəfələrlə görüşmüşük. Bu görüşlərin hamısı sizin şirkət və Azərbaycan arasında uğurla inkişaf edən tərəfdaşlığın irəliyə doğru aparılması baxımından faydalı olub. Bildiyiniz kimi, biz gələcəklə bağlı planlarımızı, Azərbaycanın müasirləşdirilməsi, informasiya texnologiyaları sektorunun inkişafı ilə bağlı planlarımızı dəfələrlə müzakirə etmişik. Xüsusən də indi, yəqin ki, siz eşitmisiniz, biz hazırda çox aktiv transformasiya mərhələsindəyik. Struktur islahatları, siyasi, iqtisadi islahatlar, məsuliyyətin gücləndirilməsi ilə bağlı tədbirlər, şəffaflıq – bütün bunlar hamısı ölkəyə böyük faydalar gətirir, həm siyasi, həm də iqtisadi.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də Dilarə Seyidzadəyə "Şərəf" ordenini təqdim edib.

* * *

Dövlət başçısı həmin gün Rusiya Federasiyasının Xarici İşlər naziri Sergey Lavrovu qəbul edib.

# Naxçıvan Dövlət Tarix Muzeyinin 95 illik yubileyi qeyd olunmuşdur

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2019-cu il avqustun 2-də "Naxçıvan Dövlət Tarix Muzeyinin 95 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalamış, bununla bağlı Tədbirlər Planı təsdiq edilmişdir.






Noyabrın 30-da Naxçıvan Dövlət Musiqili Dram Teatrında Naxçıvan Dövlət Tarix Muzeyinin 95 illik yubiley tədbiri keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan Dövlət Tarix Muzeyinin yaranmasının 95 illiyi münasibətilə tədbir iştirakçılarını, muzeyin kollektivini və muxtar respublika əhalisini təbrik edərək demişdir: Tarixi-mədəni irsi qorumaq, mühafizə və təbliğ etmək gələcəyimizə olan diqqətdir. Əgər elm müəssisələri tarixi öyrənir, tədqiq edərək üzə çıxarırlarsa, muzeylər də onu yaşadaraq gələcək nəsillərə çatdırır. Ümummilli liderimiz Heydər Əliyev Azərbaycana hər iki rəhbərliyi dövründə bu amili əsas götürərək muzeyşünaslığın inkişafına böyük qayğı göstərmişdir. Ötən əsrin 70-ci illərindən başlayaraq tarixi-mədəni irsə və milli dəyərlərə qayıdış siyasətinin tərkib hissəsi olaraq ölkəmizdə geniş muzeylər şəbəkəsi yaradılmış, rayonlarda tarix-diyarşünaslıq muzeyləri, görkəmli şəxsiyyətlərin, ədəbiyyat və incəsənət xadimlərinin ev-muzeyləri, xatirə muzeyləri istifadəyə verilmişdir. Müstəqillik illərində isə ulu öndərin rəhbərliyi ilə muzey işi inkişafın yeni mərhələsinə qədəm qoymuş, bu sahədə fəaliyyəti tənzimləyən qanunvericilik bazası yaradılmışdır.

Muzey işinin vacibliyini önə çəkən ulu öndər deyirdi ki, ***"Milli ənənələrimizin, tarixi irsimizin nə qədər dəyərli olduğunu dünyaya gələn yeni nəsillərə çatdırmaq və onları bu əsasda tərbiyə etmək üçün muzeylər lazımdır"***. Bu gün Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında muzeylərin yaradılması və inkişafı diqqətdə saxlanılır. Ən qədim insan yaşayış məskənlərinin və tarixi abidələrin mövcudluğu, Dünya tufanı və Nuh Peyğəmbərlə bağlılıq, 5-7 minillik şəhərsalma mədəniyyəti, sənətkarlığın inkişafı Naxçıvanda Azərbaycan xalqının böyük tarixi-mədəni irsinin, milli dəyərlər və adət-ənənələr sisteminin yaranmasına, bununla yanaşı, həm də muzeylərin formalaşmasına səbəb olmuşdur. Muxtar respublikanın bütün rayonlarında tarix-diyarşünaslıq muzeyləri açılmış, görkəmli şəxsiyyətlərin ev və xatirə muzeyləri yaradılmışdır. Hazırda muxtar respublikada 30 muzey fəaliyyət göstərir.



Ali Məclisin Sədri demişdir: Naxçıvanın müasir inkişafı, xüsusilə bütün sahələrdə yeni texnologiyaların tətbiqi və sürətli internetə çıxış imkanlarının yaradılması muzey işinin də dövrün tələblərinə uyğunlaşdırılmasını zərurətə çevirmişdir. Muxtar respublikada məktəb-muzey şəbəkəsinin yaradılması və interaktiv dərslərin keçirilməsi, muzey günlərinin təşkil olunması bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Bu gün Naxçıvan Dövlət Universitetində Muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması ixtisası tədris olunur. Tələbələr muzeylərdə açıq dərslərə və praktik işə cəlb olunur, kadr hazırlığı diqqətdə saxlanılır. Naxçıvan Dövlət Tarix Muzeyinin ötən 95 ildəki fəaliyyəti də muxtar respublikada muzeyşünaslığın inkişafında mühüm mərhələ kimi dəyərləndirilməlidir. 1924-cü il oktyabrın 30-da Naxçıvan şəhərində yaradılan və muxtariyyətin yaşıdı olan bu mədəniyyət müəssisəsi ilk illər Tarix-Etnoqrafiya Muzeyi adı ilə fəaliyyət göstərmişdir. Muzeyin formalaşmasında 1925-ci ildə Naxçıvanda yaradılan Naxçıvan Tədqiq və Tətəbbö Cəmiyyətinin və ziyalıların xüsusi əməyi olmuşdur. Muzey sonrakı illərdə Naxçıvan Tarix-Ölkəşünaslıq Muzeyinə çevrilmiş və muzeyə Azərbaycanın ilk realist rəssamı Bəhruz Kəngərlinin adı verilmiş, 1968-ci ildən Dövlət Tarix Muzeyi kimi fəaliyyətini davam etdirmişdir.

***"Muzeyləri qorumaq hər kəsin vətəndaşlıq borcudur"***, – deyən ulu öndərin qayğısı ilə ötən əsrin 70-ci illərindən başlayaraq Naxçıvan Dövlət Tarix Muzeyi də mühüm inkişaf yolu keçmişdir. Müstəqillik dövründə muxtar respublikada aparılan quruculuq işlərinin tərkib hissəsi kimi Tarix Muzeyi üçün yeni bina ayrılmış, aparılan tədqiqat işləri fondu zənginləşdirmiş, yeni şöbələr yaradılmışdır. Bu gün muzeydə xalqımızın qədim və zəngin tarixi, mədəniyyəti və etnoqrafiyası ilə bağlı 49 mindən çox eksponat qorunub saxlanılır.

Ali Məclisin Sədri demişdir: Muzeylərə, sadəcə, maddi mədəniyyət nümunələrinin saxlanc yeri kimi baxmaq düzgün deyil. Muzeylər həm də elm ocaqlarıdır. Naxçıvan Dövlət Tarix Muzeyi də ötən dövrdə Naxçıvanda tarixşünaslıq elminin inkişafına mühüm töhfə vermişdir. Hazırda muzeydə mühafizə olunan hər bir eksponat ayrıca tədqiqat mövzusudur. Xalq o zaman mütərəqqi dəyərlərə malik xalq hesab olunur ki, onun qədim tarixi, dövlətçilik ənənələri və zəngin mədəniyyəti olsun. Son illər Naxçıvan tarixi ilə bağlı elmi araşdırmalar aparılmış, beynəlxalq konfranslar keçirilmiş, arxeoloji tədqiqatlar zamanı mühüm tarixi əhəmiyyət kəsb edən maddi mədəniyyət nümunələri, elmi materiallar aşkar edilmiş və toplanmışdır. Həmin maddi mədəniyyət nümunələrinin qorunub saxlandığı, təbliğ və nümayiş olunduğu mərkəz kimi Naxçıvan Dövlət Tarix Muzeyinin fəaliyyəti xüsusi qeyd olunmalıdır.

Qeyd olunmuşdur ki, muzey bir tərəfdən də Naxçıvanın turizm potensialının inkişafına töhfə verir. Hər il minlərlə turist muzeyə ekskursiya edərək tariximiz, mədəniyyətimiz və etnoqrafiyamız haqqında ətraflı məlumat toplayır. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***"Muzeyin mənası, əhəmiyyəti xalqın tarixini təbliğ etdirməkdən, mədəniyyətin səviyyəsini göstərməkdən ibarətdir"***. Bu mənada, Naxçıvan Dövlət Tarix Muzeyi tariximizin və mədəniyyətimizin təbliği, gənc nəslin dəyərlərimizə sədaqət ruhunda tərbiyəsi

Ardı 2-ci səhifədə

sahəsində mühüm bir missiyanı yerinə yetirir. Çünki tariximiz gələcək nəsillərə təkcə kitablarda yazılmaqla deyil, həm də muzeylərdə qorunmaqla, nümayiş etdirilməklə öyrədilməlidir. Naxçıvan Dövlət Tarix Muzeyi bundan sonra da tarixi-mədəni irsimizin qorunub saxlandığı mərkəz kimi fəaliyyətini davam etdirməli, elm və təhsil müəssisələri, alim və tədqiqatçılarla, gənclərlə muzey arasında əlaqələr daha da gücləndirilməlidir.

"Müdrik fikirlərin birində deyilir ki, tarix gələcək haqqında elmdir. Bu fikirdə böyük həqiqət vardır. Əgər biz tariximizə sahib çıxır, onu öyrənir və təbliğ ediriksə, deməli, gələcəyimiz üçün əsaslı təminat yaratmış oluruq. Naxçıvan Dövlət Tarix Muzeyinin bundan sonrakı fəaliyyəti də keçmişimizi yaşatmaq və gələcəyimizə xidmət amalı olmalıdır", – deyən Ali Məclisin Sədri bu yolda muzeyin kollektivinə uğurlar arzulamış, yubiley münasibətilə bir daha təbrik etmişdir.

Sonra Naxçıvan Muxtar Respublikası təltiflərinin təqdimatı olmuşdur.

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 28 noyabr tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasında mədəniyyət sahəsində səmərəli fəaliyyətinə görə muzeyin 2 əməkdaşı "Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi" fəxri adı, 5 əməkdaşı isə "Rəşadətli əməyə görə" nişanı ilə təltif olunmuşlar.

Ali Məclisin Sədri təltifləri təqdim etmişdir. Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri Natəvan Qədimova çıxış edərək demişdir ki, Naxçıvan Dövlət Tarix Muzeyinin 95 illik yubileyinin keçirilməsi muxtar respublikada muzey işinin inkişafına göstərilən qayğının daha bir ifadəsidir. Qədim diyarımızda muzeylərin fəaliyyətinin canlandırılması, yeni muzeylərin yaradılması sahəsində mühüm işlər görülür, bu mədəniyyət ocaqları muzeyşünaslığın yeni nailiyyətlərinə əsaslanaraq qurulur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində muzeylərimiz müasir tələblər əsasında yenidən qurulmuş, bu sahədə mühüm işlər həyata keçirilmişdir. Son 24 ildə muxtar respublikada müxtəlif profilli 17 muzey yaradılmışdır. Muxtar respublika əhəmiyyətli muzeylərlə yanaşı, tarix-diyarşünaslıq muzeyləri, ev-muzeyləri, xatirə muzeyləri, muzey kompleksləri, dövlətçilik tariximizlə bağlı muzeylərin yaradılması həmişə diqqət mərkəzində saxlanılır. Muzeylərdə 140 mindən artıq eksponat mühafizə edilir. Bu ilin ötən dövründə muzeylərimizi 584 mindən çox tamaşaçı ziyarət etmişdir ki, onlardan 166 mindən çoxu xarici ölkə vətəndaşıdır. Ötən dövrdə muxtar respublika sakinləri tərəfindən muzeylərimizə 5083 eksponat təqdim edilmişdir.

Qeyd olunmuşdur ki, Naxçıvan Dövlət Tarix Muzeyinin 95 illik yubileyinin dövlət səviyyəsində qeyd edilməsi tariximizə göstərilən yüksək qayğının daha bir ifadəsi olmaqla yanaşı, həm də muzey kollektivlərinin, ümumilikdə, mədəniyyət işçilərinin əməyinə verilən yüksək qiymətdir. Natəvan Qədimova bu diqqət və qayğıya görə muxtar respublikanın bütün mədəniyyət işçiləri adından Ali Məclisin Sədrinə minnətdarlığını bildirmişdir.

Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru Nizami Rəhimov kollektiv adından minnətdarlıq edərək demişdir ki, muzeylərə qayğı sahəsində əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan ənənələr bu gün uğurlu davam etdirilir. Naxçıvan Muxtar Respublikasında müxtəlif profilli muzeylərin yaradılması haqqında imzalanan Sərəncamlar, Ali Məclis Sədrinin təşəbbüsü ilə mövcud muzeylərin şəraitlərinin yaxşılaşdırılması və maddi-texniki bazalarının möhkəmləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər tariximizə, mədəniyyətimizə, milli dəyərlərimizə göstərilən qayğının ifadəsidir. Naxçıvan Dövlət Tarix Muzeyi də diqqət və qayğıdan kənarda qalmamışdır. Məhz Ali Məclis Sədrinin təşəbbüsü ilə 2000-ci ilin noyabrında muzey yenidən qurulan indiki binasına köçürülmüş, 2007-ci ildə muzey binası əsaslı təmir olunmuş, lazımi avadanlıqlarla təchiz olunaraq kollektivin istifadəsinə verilmişdir. Son 20 ildə muzey fonduna 12 minə yaxın eksponat daxil edilmişdir.

Naxçıvan Dövlət Tarix Muzeyinin əməkdaşı Nuri Xavər çıxış edərək demişdir: "Mən 2017-ci ildə Naxçıvan Dövlət Universitetinin Tarix fakültəsindən məzun olmuş və həmin il Naxçıvan Dövlət Tarix Muzeyində bələdçi kimi işə başlamışam. Naxçıvan Dövlət Tarix Muzeyində yaradılan iş şəraiti, gənc kadrlara və muzey işinə göstərilən diqqət qısa zamanda işimin öhdəsindən layiqincə gəlməyə imkan verdi. Naxçıvan Dövlət Tarix Muzeyində işləmək həm qürurverici, həm də çətindir. Çünki bu işdə dünyagörüş, dərin bilik tələb olunur. Muzeyimizdəki hər bir eksponat tariximiz, bu günümüz və gələcəyimizdir. Buna görə də mən hər zaman muzey işinin sirlərinə dərindən yiyələnməyi, bu sahədə biliyimi daha da artırmağı özümə borc hesab edirəm. İşimin ən şərəfli tərəfi isə tariximizi yerli vətəndaşlarla yanaşı, dünyanın bir çox fərqli ölkələrindən gələn turistlərə çatdırmaq və təbliğ etməkdir. Bu gün yubiley tədbiri muzey kollektivi üçün ikiqat qürurvericidir. Çünki Ali Məclis Sədrinin Sərəncamı ilə Naxçıvan Dövlət Tarix Muzeyinin əməkdaşlarından ikisi "Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi" fəxri adı, 5 əməkdaş isə "Rəşadətli əməyə görə" nişanı ilə təltif olunmuşlar. "Rəşadətli əməyə görə" nişanı ilə təltif olunan əməkdaşlar arasında mənim də adım vardır. Bu, gənc əməkdaş kimi fəaliyyətimə verilən yüksək qiymətdir. Yaradılan şəraitə, eləcə də əməyimizə verilən yüksək qiymətə görə təltif olunan muzey işçiləri adından Ali Məclisin Sədrinə minnətdarlığımızı bildiririk".

Sonra Naxçıvan Dövlət Televiziyasının hazırladığı "Naxçıvan Dövlət Tarix Muzeyi-95" filminə baxış olmuşdur.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Muxtar respublikada məhdud fiziki imkanlı şəxslərə hərtərəfli dövlət qayğısı göstərilir





*Ölkəmizdə məhdud fiziki imkanlı şəxslər hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə əsası qoyulan bu siyasət hazırda ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, bu sahədə qanunvericilik bazası daha da təkmilləşdirilir. Cəmiyyətin ümumi inkişaf prosesinə uyğun olaraq bu kateqoriyadan olan şəxslərin sosial təminatını daha da yaxşılaşdıran, habelə ayrı-ayrı sosial məsələlərin həllinə imkanlar yaradan qanunlar qəbul edilir, eyni zamanda onların maddi təminatını gücləndirmək məqsədilə yeni təqaüd və müavinətlər təsis edilir, pensiyaların və digər sosial ödənişlərin məbləği mütəmadi artırılır.*

Bu sahədə həyata keçirilən islahatlar cari ildə də davam etdirilmiş, Azərbaycan Respublikası Prezidentinin "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" 2019-cu il 25 fevral tarixli Sərəncamının icrasına uyğun olaraq sağlamlıq imkanları məhdud şəxslər üçün sosial müavinətlər orta hesabla 100 faiz artırılmışdır. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli Fərmanı ilə I dərəcəli fiziki imkanları məhdud şəxslərə və ya bu kateqoriyadan olan 18 yaşınadək uşaqlara qulluq edən şəxslərə 50 manat məbləğində Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edilmişdir.

Naxçıvan Muxtar Respublikasında məhdud fiziki imkanlı şəxslərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, onların minik avtomobilləri və texniki-bərpa vasitələri ilə təmin edilməsi, təhsil almaları, məşğulluq imkanlarının yüksəldilməsi, istedad və bacarıqlarının inkişaf etdirilməsi, habelə asudə vaxtlarının səmərəli təşkili üçün hərtərəfli şərait yaradılmışdır. Naxçıvan şəhərində Əlillərin Bərpa Mərkəzinin, Uşaq Bərpa Mərkəzinin və Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin fəaliyyət göstərməsi bu kateqoriyadan olan şəxslərin müalicə və reabilitasiyasının təşkilində mühüm əhəmiyyətə malikdir. Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzinin yaradılması isə hərəkət qabiliyyəti məhdud olan şəxslərin təhsilə cəlbinə imkan verir.

Hazırda tənha ahıl və sağlamlıq imkanları məhdud 235 şəxsə evlərində sosial-məişət xidməti göstərilir, onların sosial problemlərinin həlli və vaxtaşırı tibbi müayinədən keçmələri təmin edilir. Bununla yanaşı, sağlamlıq imkanları məhdud şəxslərin tibbi və sosial reabilitasiyası məqsədilə cari ilin 11 ayında Əlillərin Bərpa Mərkəzində 356, Uşaq Bərpa Mərkəzində 409 sağlamlıq imkanları məhdud şəxsə tibbi xidmət göstərilmişdir. Həmçinin sağlamlıq imkanları məhdud 607 şəxsə sanatoriya və pansionatlara göndəriş verilmiş, 381 nəfər texniki reabilitasiya və digər köməkçi vasitələrlə təmin edilmiş, 200 nəfərə isə protez-ortopedik xidmət göstərilmişdir.

Məhdud fiziki imkanlı şəxslərin məşğulluğunun təmin edilməsi də diqqət mərkəzindədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası məhdud fiziki imkanlı şəxslərin sosial müdafiəsinin gücləndirilməsinə əsaslı zəmin yaradır. Bu ilin ötən dövründə əmək bazarının tələblərinə uyğun təşkil olunan müvafiq peşə kurslarına sağlamlıq imkanları məhdud 13 nəfər cəlb edilmiş, bu kateqoriyadan olan 83 şəxs münasib işlə təmin olunmuşdur. Sağlamlıq imkanları məhdud şəxslərin özünüməşğulluqlarının təmin edilməsi məqsədilə 32 nəfər sosial xarakterli haqqıödənilən ictimai işlərə cəlb olunmuş, 35 nəfərə isə fərdi təsərrüfatlarını formalaşdırmaq üçün köməklik göstərilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrası bu kateqoriyadan olan uşaqların təhsil almasına, onların reabilitasiyasına, cəmiyyətə daha fəal inteqrasiyasına yeni imkanlar yaradır. Hazırda bu qəbildən olan uşaqlardan 30-u məktəbəqədər təhsil müəssisələrində, 1033-ü ümumtəhsil məktəblərində, hərəkət qabiliyyətinin məhdudluğu





səbəbindən məktəbə gedə bilməyən 11 uşaq isə distant tədris prosesi vasitəsilə təhsilini davam etdirir. Tədrisə cəlb edilmiş aztəminatlı sağlamlıq imkanları məhdud 284 şagird məktəbli geyimi və ləvazimatları, eləcə də qış geyimi ilə təmin edilmişdir. Yay tətili günlərində sağlamlıq imkanları məhdud məktəbli uşaqların asudə vaxtlarının səmərəli təşkili məqsədilə tərtib edilmiş tədbirlər planına uyğun olaraq onların Naxçıvan şəhərində muzeylərə, tarix-memarlıq abidələrinə, istehsal və emal müəssisələrinə ekskursiyaları təşkil olunmuş, təhsildə fərqlənən məktəbli uşaqlar Ağbulaq İstirahət Mərkəzinə göndərilmiş, Naxçıvan Dövlət Kukla Teatrında sağlamlıq imkanları məhdud uşaqlar üçün tamaşalar nümayiş etdirilmişdir. Ümumilikdə, dövlət proqramının icrasına uyğun olaraq uşaqlar arasında şeir, bilik və yazı müsabiqələri 2019-cu ilin ötən dövründə də davam etdirilmiş, sağlamlıq imkanları məhdud şəxslər arasında solooxuma, rəqs, instrumental ifaçılıq və bədii qiraət növləri üzrə bədii yaradıcılıq müsabiqəsi keçirilmiş, qaliblərin Bakı şəhərində bu kateqoriyadan olan şəxslər arasında keçirilən VIII Ümumrespublika bədii yaradıcılıq baxış müsabiqəsində iştirakı təmin edilmişdir. Bununla yanaşı, məhdud fiziki imkanlı şəxslər tərəfindən toxunmuş 3000 cüt yun corab və 400 yun şərf hərbi hissələrə təhvil verilmiş, 85 tənha ahıl və sağlamlıq imkanları məhdud şəxsə ehtiyaclarına uyğun zəruri ləvazimatlar təqdim edilmişdir. Sağlamlıq imkanları məhdud ifaçılardan ibarət "İnam" musiqi qrupu mütəmadi olaraq bayram tədbirlərində hərbçilər qarşısında konsert proqramları ilə çıxış edir.

Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinə Naxçıvan şəhərindən və rayonlardan sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların və müxtəlif kateqoriyadan olan fiziki imkanları məhdud şəxslərin cəlbi davam etdirilir. Cari ilin ötən dövründə mərkəzdə fəaliyyət göstərən bütün bölmələrə bu kateqoriyadan olan 209, həmçinin mərkəzin Defektoloji bölməsinin Şərur rayon filialına 40, Ordubad rayon filialına isə 38 sağlamlıq imkanları məhdud uşaq cəlb edilmişdir. Mərkəzin Defektoloji bölməsinin təlim məşğələlərinə 121, kinect oyunlar otağına 40, məhdud fiziki imkanlıların kompüter kurslarına 34, əmək terapiyası otağına 38, musiqi terapiyası otağına 41, psixoloji dəstək xidmətinə 53, təlim bərpa otağına 15, rəsm kursuna isə 12 sağlamlıq imkanları məhdud uşaq cəlb edilmişdir. Görmə məhdudiyyətli şəxslər üçün "Könül işığı", eləcə də uşaqlar üçün "Şəfəq" brayl jurnalının nəşri davam etdirilmiş, bu kateqoriyadan olan şəxslərin istifadəsi üçün yaradılmış audiokitabxana xidmətinə 58 audioəsər əlavə edilmişdir.

Naxçıvan şəhərindəki Əlillərin Bərpa Mərkəzinə və Uşaq Bərpa Mərkəzinə yeni tibbi avadanlıqlar alınmış, mərkəzdə "Şorsu" palçığı və Darıdağ arsenli suyunun tətbiqi üçün yeni müalicə otaqları yaradılmışdır. Müvafiq kateqoriyadan olan uşaqların asudə vaxtlarının səmərəli təşkili üçün ərazidə əyləncəli oyun sahəsi istifadəyə verilmişdir.

Məhdud fiziki imkanlı şəxslərin idman qruplarına cəlbi və onların cəmiyyətə inteqrasiyası məqsədilə muxtar respublikanın rayonlarında boccia və stolüstü tennis üzrə yeni idman bölmələri yaradılmış, məşqçi-müəllimlər müəyyənləşdirilmişdir. Hazırda muxtar respublika üzrə Paralimpiya Federasiyasının 12 bölməsi fəaliyyət göstərir.

***Muxtar respublikada sosial-iqtisadi sahədə dinamik inkişafın təmin olunması məhdud fiziki imkanlı şəxslərin rifahının bundan sonra daha da yaxşılaşmasına imkan verəcəkdir.***

***Naxçıvan Muxtar Respublikası***
***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# Naxçıvan Mətbuat Şurası Ümumdünya Mətbuat Şuraları Assosiasiyasına üzv seçilib



*Naxçıvanda keçirilən "Onlayn media və sosial şəbəkələr: yeni dövrün çağırışlarında jurnalist peşəkarlığı və cəmiyyətin mənafeləri" mövzusunda beynəlxalq konfransda iştirak etmək üçün muxtar respublikaya səfər edən Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının və Azərbaycan Mətbuat Şurasının nümayəndələri əvvəlcə ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini və Heydər Əliyev Muzeyini ziyarət ediblər.*

Naxçıvan Dövlət Universitetinin Media Mərkəzi ilə yaxından tanış olan qonaqlar universitet televiziyasına müsahibə veriblər. Jurnalistika ixtisası üzrə təhsil alan tələbələrlə keçirilən görüşdə müasir dövrdə medianın fəaliyyət istiqamətlərindən ətraflı söhbət açılıb. Çıxış edənlər cəmiyyət həyatında medianın rolundan bəhs edib, dünya ölkələrində mətbuat şuralarının fəaliyyətinin önəmini vurğulayıblar. Sonra Azərbaycan Mətbuat Şurası tərəfindən jurnalistika ilə bağlı kitablar, eləcə də bədii ədəbiyyatlar tələbələrə hədiyyə edilib.

Həmin gün keçirilən beynəlxalq konfransı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Ülvi Hüseynli açaraq bildirib ki, bu gün Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında bütün sahələr kimi, kütləvi informasiya vasitələrinin inkişafına da böyük diqqət və qayğı göstərilir. Mətbuat orqanlarına, teleradiolara yaradılan hərtərəfli şərait yeni keyfiyyət dəyişiklikləri ilə müşahidə olunur.

Qeyd edilib ki, güclü maddi-texniki baza və hərtərəfli yaradıcılıq imkanı, bütün yaşayış məntəqələrinin fiber-



optik kabel xətti və sürətli internetlə, İP televiziya və rəqəmsal yayımla təmin olunması informasiya-məlumatlandırma işinin səmərəliliyini xeyli artırıb. Bu gün muxtar respublikada universitet televiziyası və radiosu da daxil olmaqla, 3 televiziya, 3 radio, 9 qəzet, ali təhsil və elm müəssisələrinin qəzet və jurnalları, "Nuhçıxan" İnformasiya Agentliyi fəaliyyət göstərir, ümumilikdə, kütləvi informasiya vasitələrində 400-ə yaxın insan çalışır. Ötən dövrdə bu sahənin fəaliyyətini təmin edən təşkilati tədbirlər də görülmüş, 2005-ci ildə Naxçıvan Mətbuat Şurası, 2007-ci ildə isə Televiziya və Radio Şurası yaradılmışdır. Ali Məclis Sədrinin 2019-cu il 19 sentyabr tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması da bu sahədə həyata keçirilən tədbirlərin davamıdır.

Muxtar respublikadakı kütləvi informasiya vasitələri Naxçıvanın sosial-iqtisadi inkişafı, tarixi və turizm potensialı haqqında məlumatların oxucu, tamaşaçı və dinləyicilərə daha operativ çatdırılması istiqamətində səylə fəaliyyət göstərir.

Vurğulanıb ki, dünyanın nüfuzlu telekompaniyaları, media holdinqləri Naxçıvan barədə filmlər hazırlayırlar. Bu ilin ötən dövründə dünya və ölkə media qurumları dəfələrlə muxtar respublikada səfərdə olub, 50-yə yaxın film və verilişin çəkilişləri aparılıb.

Muxtar respublikada sosial medianın inkişafı sahəsində də yeni mərhələnin əsası qoyulub. Belə ki, bu gün buradakı bütün kütləvi informasiya vasitələrinin sosial şəbəkələrdə aktiv hesabları vardır. Hazırlanan telemateriallar və qəzet yazıları, o cümlədən fotoşəkillər sosial şəbəkələr vasitəsilə operativ şəkildə geniş kütləyə çatdırılır. Naxçıvanda keçirilən bu beynəlxalq konfrans və Naxçıvan Mətbuat Şurasının Ümumdünya Mətbuat Şuraları Assosiasiyasına üzv seçilməsi mühüm əhəmiyyət daşıyır.

Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov şuranın fəaliyyəti barədə ətraflı məlumat verib, sosial şəbəkələrin və onlayn medianın əhəmiyyətini diqqətə çatdırıb. Bildirib ki, şura daxil olan şikayətlər əsasında qeyri-dəqiq və qərəzli informasiyaların yayılması barədə araşdırmalar aparır, belə xoşagəlməz hallara qarşı mübarizədə fəal iştirak edir.

Əflatun Amaşov Naxçıvan Mətbuat Şurasının Ümumdünya Mətbuat Şuraları Assosiasiyasına üzv olması ilə bağlı qeyd edib ki, yeni memorandumun imzalanması ölkəmizin media mühitində əlamətdar hadisədir. Bu həm də Naxçıvan mediasının müasir durumunu əks etdirməklə yanaşı, onun beynəlxalq müstəviyə çıxarılma səviyyəsini də təsdiqləyir. Şura sədri, həmçinin gənc tələbə-jurnalist kadrların Naxçıvan teleradiosunda və "Şərq qapısı" qəzetində təcrübə kurslarına cəlb edildikdən sonra işə götürülmələrini də mütərəqqi addım hesab edib. Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamı ilə əsası qoyulan hamilik təcrübəsinin ölkəmizin digər universitet və dövlət oqanları, eləcə də media qurumları arasında tətbiqi günün tələbinə çevrilib. Bu, Naxçıvanda gənc jurnalistlərin yetişməsində müstəsna rol oynayır.

Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının



rəhbəri Melek Sule Aker assosiasiyanın fəaliyyət istiqamətləri barədə məlumat verərək bildirib ki, təşkilata 21 mətbuat şurası üzvdür. Biz çox sevinirik ki, Naxçıvan Mətbuat Şurası da assosiasiyaya üzv seçilir. Bunun nəticəsində ikitərəfli münasibətlər daha da genişlənəcək, beynəlxalq tədbirlərdə Naxçıvan mətbuatı da təmsil olunacaq. Melek Sule Aker mövzunun aktuallığını diqqətə çatdıraraq qeyd edib ki, sosial şəbəkələr və sosial media ictimai fikri formalaşdırır. Bu gün ən önəmli problemlərdən biri sosial medianın tənzimlənə bilməməsi və müəllif hüquqlarının pozulmasıdır. Bu problemin aradan qaldırılması üçün tənzimləyici hüquqi bazanın formalaşması bütün dünyada öndə duran məsələlərdəndir.

Əflatun Amaşov və Melek Sule Aker göstərilən diqqətə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinə minnətdarlıqlarını ifadə ediblər.

Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının üzvü, Nigeriyadan olan beynəlxalq media eksperti Nik Nvolisa Nigeriyada və orta Afrikada sosial medianın tənzimlənməsi və bu sahədə olan problemlər barədə məlumat verib.

Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri Sahil Tahirli vurğulayıb ki, muxtar respublikanın informasiya blokadası tam yarılıb. Naxçıvan televiziyası və radiosu dünyaya açılıb və hər bir nöqtədə izlənilir. Bu gün Naxçıvandakı mətbuat orqanlarının, "Nuhçıxan" İnformasiya Agentliyinin saytları və sosial şəbəkə hesabları dünyanın 140 ölkəsindən izlənilir və oxunur, ingilis, rus dillərində yayılır. Sahil Tahirli deyib ki, Naxçıvan mediası sürətlə gəncləşir, təkcə son 5 ildə Naxçıvan Dövlət Universitetini jurnalistika ixtisası ilə bitirən 20 nəfər gənc Naxçıvan teleradiosunda işlə təmin edilib.

"Şərq qapısı" qəzetinin baş redaktoru Mehriban Sultanova müasir cəmiyyətdə onlayn medianın informasiya təminatındakı başlıca rolundan danışaraq bildirib ki, media qurumlarının sosial şəbəkələrdəki çoxminlik səhifələrinin yaradılması muxtar respublika barədə operativ, dəqiq və qərəzsiz informasiyaların yayılmasını təmin edir. Mehriban Sultanova muxtar respublikada mətbuatın inkişafına göstərilən dövlət qayğısı nəticəsində qəzetin saytının yenilənməsi, mobil interfeysinin, sosial şəbəkə səhifələrinin yaradılması, qəzet əməkdaşlarının sosial mediada fəal təmsil olunması barədə də məlumat verib.

Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov şuranın fəaliyyətindən və onun Ümumdünya Mətbuat Şuraları Assosiasiyasına üzvlüyə qəbul olunmasının Naxçıvanda jurnalistikanın gələcək inkişafı baxımından əhəmiyyətindən danışıb.

Tədbirdə Azərbaycan Mətbuat Şurasının sədr müavini Umud Rəhimoğlu və İdarə Heyətinin üzvü Vüqar Rəhimzadə çıxış ediblər, qarşılıqlı müzakirələr aparılıb.

Konfransın sonunda Naxçıvan Mətbuat Şurasının Ümumdünya Mətbuat Şuraları Assosiasiyasına üzv olması ilə bağlı ikitərəfli memorandum imzalanıb.

Beynəlxalq konfransın iştirakçıları dekabrın 1-də "Şərq qapısı" qəzetinin redaksiyasında, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində, Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində yaradılan müasir şəraitlə tanış olub, jurnalist həmkarları ilə fikir mübadiləsi aparıblar. Qonaqlar Batabatda olub, "N" hərbi hissədə əsgərlərlə görüşüb, Duzdağ Fizioterapiya Mərkəzini, Möminə xatın türbəsini, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksini və Nuh Peyğəmbərin məzarüstü türbəsini ziyarət ediblər. Beynəlxalq konfransın iştirakçıları "Şərq qapısı" qəzetinə müsahibə veriblər:



***Melek Sule Aker – Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının rəhbəri:*** – Naxçıvan Mətbuat Şurasının Ümumdünya Mətbuat Şuraları Assosiasiyasına üzv qəbul olunması bizi daha da güclü edəcək. Ölkələrimiz arasında sıx dostluq əlaqələri qurulacaq, həm də Naxçıvanın dünya ilə informasiya mübadiləsi daha da genişlənəcək. Düşünürəm ki, bütün bunlar hər iki tərəf üçün çox yaxşı nəticələr verəcək. Bu, Naxçıvanın xarici ölkələrlə dialoq qurması baxımından çox vacibdir. Biz bu gündən sonra Naxçıvan haqqında məlumatları başqa ölkələrə çatdıracağıq.

Onu da deyim ki, Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının illik toplantısını bu ilin sentyabr ayında Azərbaycanda təşkil etdik. Toplantıda iştirak edən bütün üzvlərimiz Azərbaycanın gözəlliyinə, insanlarının qonaqpərvərliyinə heyran qaldılar. Onların çoxunun jurnalistlər olduğunu nəzərə alaraq demək olar ki, dünyanın yarısında Azərbaycanla bağlı məlumatlar yayılacaq. Bu konfransdan sonra Naxçıvandakı inkişafdan dünya da xəbərdar olacaq. Burada olmağımdan çox məmnunam, göstərilən qonaqpərvərliyə görə minnətdarlığımı bildirirəm.



***Əflatun Amaşov – Azərbaycan Mətbuat Şurasının sədri:*** – Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının üzvlərinin Naxçıvana səfəri iki məsələ ilə bağlıdır. Birincisi, Naxçıvan Mətbuat Şurasının Ümumdünya Mətbuat Şuraları Assosiasiyasına üzv qəbul olunması, ikincisi isə "Onlayn media və sosial şəbəkələr: yeni dövrün çağırışlarında jurnalist peşəkarlığı və cəmiyyətin mənafeləri" mövzusunda beynəlxalq konfransın keçirilməsi idi. Belə bir aktual mövzunun Naxçıvanda müzakirə olunması bizim üçün çox vacib idi. Çünki Naxçıvan ərazisinin, demək olar ki, 100 faizi internetə əlçatandır, burada internetdən və sosial şəbəkələrdən geniş istifadə olunur. Həm də ona görə vacib idi ki, biz bu sahədə olan problemləri müəyyənləşdirək və Azərbaycana qarşı olan hücumların, cəmiyyətdə baş verən proseslərin yanlış qiymətləndirilməsinin qarşısını necə ala biləcəyimizi müzakirə edək. Bu, bütün dünyada idarəolunmaz prosesdir və həmin məsələlər dünyada media qurumlarının etik normalara əməl etməyə çağırışı ilə tənzimlənir. Azərbaycanda da həmin təcrübə geniş yayılıb.

Naxçıvan Mətbuat Şurasının Ümumdünya Mətbuat Şuraları Assosiasiyasına üzv qəbul olunması hər iki tərəf üçün maraqlıdır. Bununla Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının əhatə dairəsi genişlənir. Eyni zamanda naxçıvanlı jurnalistlərin dünyada baş verən prosesləri daha yaxından izləyə bilməsinə geniş şərait yaranacaq. Beləliklə də, Naxçıvan mediası dünya mediasının tərkib hissəsi olaraq daha da inkişaf edəcək.

Onu da deyim ki, Naxçıvandakı media qurumları ilə tanışlıq zamanı kifayət qədər yeniliklərlə qarşılaşdıq. Universitetdə tələbələrlə görüşdə onların aktivliyini gördük. Müvafiq ixtisasların dövlət qurumlarına hamiliyə verilməsinin, tələbələrin bu qurumlarda təcrübə keçmələrinin onların ixtisaslı kadr kimi formalaşmasında mühüm rol oynayacağını düşünürəm.



***Umud Rəhimoğlu – Azərbaycan Mətbuat Şurasının sədr müavini:*** – Konfransda imzalanan memorandum media nümayəndələrinin, jurnalistlərin beynəlxalq qurumlara inteqrasiyasında önəmli rol oynayacaq.

Naxçıvanın bugünkü vəziyyəti, istər iqtisadi baxımdan, istərsə də Naxçıvan şəhərinin və muxtar respublikanın rayonlarının inkişafı ilə bağlı deyiləcək söz kifayət qədərdir, səfər etdiyimiz yerlərdə bunun əyani şahidi olduq. Düşünürəm ki, qədim diyar son on il ərzində böyük tərəqqi prosesi keçib. Xarici ölkələrdən olan həmkarlarımız da buna heyranlıqlarını bildirdilər.

Yeri gəlmişkən deyim ki, Naxçıvanda xidmət edən əsgərlərimiz üçün yaradılan müasir infrastrukturun da şahidi oldum, isti su, normal temperaturda və təmiz şəkildə gözoxşayan yataqxanalar gördüm və çox qürurlandım. Ümumiyyətlə, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının güclü, dəyanətli olması bütünlüklə ölkəmizin qüdrətli olması deməkdir. Təbii ki, bu inkişafın lazımi səviyyədə tanıdılması işində jurnalistlərin üzərinə məsuliyyətli vəzifə düşür. Bu şərəfli missiyanın yerinə yetirilməsində dəyərli həmkarlarıma müvəffəqiyyətlər arzulayıram.



***Nick Nvolisa – Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının üzvü, Nigeriya vətəndaşı:*** – Naxçıvanla qısa tanışlığım müddətində gördüklərim indiyədək heç yerdə rastıma çıxmayıb. Bütün sahələrdə inkişaf, tərəqqi hökm sürür. Duzdağ Fizioterapiya Mərkəzi inanılmaz möcüzəli bir məkandır. Bu səhiyyə müəssisəsi barədə sosial şəbəkələrdən, internet portallarından oxumuşdum. Ancaq, necə deyərlər, oxumaq ayrı, gözlə görmək ayrı.

Onu da qeyd edim ki, Naxçıvanda medianın inkişafı üçün böyük işlər görülüb, bu sahədə yeniliklər məni heyrətləndirdi. İstərdim ki, öz vətənimdə də bu yeniliklərdən istifadə olunsun. Gənc kadrların işə həvəslə can yandırması, böyük şövqlə bizimlə ünsiyyət qurması məni çox sevindirdi. Qısa müddət ərzində Naxçıvanın bir sıra yerlərində olsam da, buranı tam tanımağım üçün yetərli deyil. Gələcəkdə yenə buraya üz tutmaq niyyətindəyəm. Naxçıvanı hər zaman xoş xatirələrlə xatırlayacağam.

**Xəbərlər şöbəsi**

## Naxçıvan Muxtar Respublikası *“Azərbaycan Turizm Sammiti 2019”*da təmsil olunub



Bakı Konqres Mərkəzində Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin təşkilatçılığı ilə “Azərbaycan Turizm Sammiti 2019” adlı tədbir keçirilib. Artıq ikinci ildir, keçirilən sammitə turizm sahəsinin təmsilçiləri, hökumət və ölkəmizdə akkreditə olunmuş diplomatik korpusun nümayəndələri də daxil olmaqla, ümumilikdə, 1500-dən çox iştirakçı qatılıb. Mötəbər tədbirdə muxtar respublikamız da geniş heyətlə təmsil olunub. Sammitdə Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin direktoru Əkbər Novruzov, Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərov, “Nəqşicahan Holdinq Şirkətlər Qrupu” Məhdud Məsuliyyətli Cəmiyyətinin iqtisadi məsələlər üzrə direktor müavini Rifat Mahmudov, həmçinin bir qrup nümayəndə heyəti iştirak edib.

Turizm sənayesində son tendensiyaları, o cümlədən ölkədaxili və Azərbaycana səfərlərin marketinq və təbliğatı məsələlərini müzakirə etmək məqsədilə təşkil olunan sammit çərçivəsində müxtəlif mövzular üzrə sessiyalar keçirilib.

Sessiyalar “Azərbaycanın yeni turizm konsepsiyasına uyğun olaraq səyahət təcrübəsinin yaradılması”, “Turizm sənayesinə dəstək: çağırışlar və imkanlar”, “Azərbaycanda qonaqpərvərlik sektorunun ən yaxşı təcrübələri və HOTREC üzvlüyünün üstünlükləri”, “Turizmdə rəqəmsal fəaliyyət və marketinq təcrübələri”, “Turizmdən artıq: işgüzar tədbirlər sənayesi destinasiyanın inkişafı üçün aparıcı amil kimi”, “Turizm üzrə statistikanın, tədqiqatların və təhsilin Azərbaycanda turizm sənayesinə faydası” mövzularını əhatə edib. Sammit iştirakçılarına Naxçıvan Muxtar Respublikasının turizm potensialını əks etdirən bukletlər təqdim olunub, həmçinin “Nəqşicahan Holdinq Şirkətlər Qrupu” MMC-nin tabeliyində fəaliyyət göstərən otel və restoranların nümayəndələri tərəfindən bir sıra işgüzar görüşlər keçirilib. Görüşlərdə muxtar respublikaya turistlərin cəlbi istiqamətində görüləcək işlər müzakirə olunub.

Tədbir zamanı turizm sahəsinin aparıcı iştirakçıları tərəfindən yerli, həmçinin ölkəyə gələn xarici turistlərin səfərlərinin təkmilləşdirilməsi, bu sahədə yeniliklər və qarşıda duran maneələrlə, marketinq və təbliğat fəaliyyəti ilə bağlı müzakirələr aparılıb.

***Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti***

## Babək rayonunda “Ailə təsərrüfatı məhsulları” festivalı keçirilib





***Babək rayonu muxtar respublikada aqrar sahənin dinamik inkişaf etdiyi və zəngin təsərrüfatçılıq ənənələrinə malik olan yaşayış məntəqələrindəndir. Rayonun təbii-coğrafi şəraiti, göstərilən dövlət dəstəyi, zəhmətkeş insanların əməyi ailə təsərrüfatlarının inkişafına stimul verib.***

Bu gün rayonda müxtəlif növ süd və bostan-tərəvəz məhsullarının, turşuların, dərman bitkilərinin istehsalı sahəsində ixtisaslaşmış ailə təsərrüfatları fəaliyyət göstərir. Cari ildə dövlət tərəfindən 10 ailə təsərrüfatçısına məhsul istehsalını daha da artırmaq üçün 108 min manatdan çox kredit verilib. Məhsul istehsalını artırmaq işin bir tərəfi, onu münasib qaydada və vaxtında istehlakçıya çatdırmaq isə digər bir tərəfidir. Buna görə də muxtar respublikada ənənəvi olaraq yarmarkalar, sərgi-satışlar və festivallar təşkil olunur.

Ötən şənbə günü Babək qəsəbəsindəki mərkəzi meydanda keçirilən “Ailə təsərrüfatı məhsulları” festivalı da bu tədbirlərin davamıdır. Festivalda rayonun 36 yaşayış məntəqəsindən 90-dan çox ailə təsərrüfatı sahibi iştirak edib. Təsərrüfat sahibləri festivala 167 növdə 3583 qablaşdırılmış məhsul çıxarıblar. Alıcılara müxtəlif növ mürəbbələr, pendir, qatıq, cəviz, meyvə araqları, eləcə də turşular, kompotlar, dərman bitkiləri təklif edilib.

Nehrəm kəndindən olan ailə təsərrüfatçısı Tofiq Abutalıbovun festivala çıxardığı qarpız turşusu, mürəbbəsi, doşabı, şərablar, qurudulmuş dəmirtikanı meyvəsi, abqora alıcıların marağına səbəb olub. Qocaman təsərrüfatçı deyir ki, rayonun bütün kəndlərindən olan ailə təsərrüfatçıları təmsil etdikləri ərazinin torpaq-iqlim xüsusiyyətlərinə xas olan məhsulları festivala çıxarırlar. Bəzən ailə təsərrüfatı sahibləri bir neçə aya satacaqları məhsulları belə festivallarda bir gündə satırlar. Biz zəhmət adamları yaradılan bu şəraitdən çox razıyıq.

Qeyd edək ki, festivalda alıcılara iaşə xidməti də göstərilib. Babək Rayon Mədəniyyət Evinin “Zabul” İnstrumental Ansamblının və rayon Uşaq-musiqi məktəblərinin kollektivləri festivala rəngarənglik qatıb.

**Muxtar RZAZADƏ**

## Paralimpiyaçılar arasında şahmat birinciliyi



***Naxçıvan Şahmat Mərkəzində 18 yaşadək sağlamlıq imkanları məhdud şəxslər arasında şahmat üzrə Naxçıvan Muxtar Respublika birinciliyi keçirilib.***

Birinciliyin keçirilməsində məqsəd 18 yaşadək sağlamlıq imkanları məhdud şəxslər arasında bədən tərbiyəsi və idmanın kütləviliyinə nail olunması, onların asudə vaxtlarının səmərəli təşkili, sağlamlıq imkanları məhdud şəxslər arasında şahmat idman növünün inkişaf etdirilməsi və onların sosial reabilitasiyasına nail olunmasıdır.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Paralimpiya və Şahmat federasiyalarının birgə təşkil etdikləri birincilikdə 27 sağlamlıq imkanları məhdud şəxs iştirak edib. Beynəlxalq şahmat qaydalarına əsasən keçirilən oyunları federasiya tərəfindən təsdiq edilən hakimlər heyəti idarə edib.

Yekun nəticələrə əsasən Səlim Sadiqli, Allahverdi Əsgərov və Anar Cəfərli ilk üç pillədə qərarlaşıblar.

Sonda qalib idmançılara Gənclər və İdman Nazirliyi diplom, Paralimpiya Federasiyası bütün iştirakçılara oxunması zəruri olan kitablar, Şahmat Federasiyası isə ilk beş yeri tutan qaliblərə pul mükafatı təqdim edib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası üzrə 2 dekabr 2019-cu il tarixə taxıl səpininin gedişinə dair məlumat

hektarla

| S/№ | Şəhər və rayonlar | Səpilən sahə | o cümlədən | |
|---|---|---|---|---|
| | | | buğda | arpa |
| 1. | Şərur rayonu | 2739,0 | 2462,0 | 277,0 |
| 2. | Babək rayonu | 9996,0 | 7364,0 | 2632,0 |
| 3. | Ordubad rayonu | 1086,0 | 481,0 | 605,0 |
| 4. | Culfa rayonu | 6375,0 | 5510,0 | 865,0 |
| 5. | Kəngərli rayonu | 4898,0 | 2812,0 | 2086,0 |
| 6. | Şahbuz rayonu | 1028,0 | 1020,0 | 8,0 |
| 7. | Sədərək rayonu | 1626,0 | 1034,0 | 592,0 |
| 8. | Naxçıvan şəhəri | 769,0 | 670,0 | 99,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **28517,0** | **21353,0** | **7164,0** |

## *“Səyyar dövlət qulluğu xidməti könüllüyü”* startap layihəsinin icrası başa çatıb



“Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 3 aprel tarixli Sərəncamının icrasının təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya könüllülərin iştirakı ilə “Səyyar dövlət qulluğu xidməti könüllüyü” startap layihəsini 2019-cu il ərzində uğurla həyata keçirmişdir.

Əvvəlcə könüllülər Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın və Gənclər Fondunun əməkdaşları tərəfindən keçirilən təlimlərə cəlb olunmuş və onlara “Etik davranış qaydaları”, “Könüllülərin vəzifələri və məsuliyyətləri”, “Sənəd qəbulunun həyata keçirilməsinin üsul və qaydaları”, “Ünsiyyətin düzgün qurulması” və “Vətəndaşlarla ünsiyyət” mövzularında təlim keçirilmişdir.

Komissiyanın əməkdaşları və könüllülərdən ibarət səyyar xidmət qrupu il ərzində Şərur, Şahbuz, Ordubad və Culfa rayonlarında yaşayan və müsabiqələrdə iştirak etmək üçün qeydiyyatdan keçməkdə çətinlik çəkən 109 vətəndaşa yaşadıqları yerlərdə operativ köməklik göstərmişdir ki, bu xidmət də vətəndaşlar tərəfindən yüksək qiymətləndirilmişdir.

Xidmətin məqsədi rayonlarda yaşayan, informasiya-kommunikasiya texnologiyalarından və elektron xidmətlərdən istifadə etməkdə çətinlik çəkən vətəndaşlara yaşadıqları yerlərdə köməklik göstərilməsindən, eləcə də rayonlarda yaşayan şəxslərin sənəd təqdim etmək üçün mərkəzə gəlməsinin və bunun nəticəsində yaranan vaxt və maliyyə itkisinin qarşısının alınmasından ibarətdir. Xidmətin həyata keçirilməsi zamanı Dövlət Qulluğu Məsələləri üzrə Komissiya əməkdaşının müşayiəti ilə könüllülər vətəndaşlarla birbaşa ünsiyyətdə olmuş, lazımi sənədləri qəbul etmiş, həmin sənədlərin düzgünlüyünü yoxlayaraq skan edilmiş surətlərini şəxsi kabinetə yükləmiş və onların müsabiqədə iştiraklarını təmin etmişlər.

Cari ildə rayonlarda vətəndaşlara göstərilən səyyar xidmət 2020-ci ildə də uğurla davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## Məktəbli voleybolçular yarışıb

*Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində keçirilən voleybol üzrə məktəblilər arasında muxtar respublika birinciliyi başa çatıb.*



Noyabr ayının 26-da start verilən birincilikdə 19 komanda qaliblik uğrunda mübarizə aparıb. Final oyunlarında Şərur və Culfa rayon komandaları qızlar və oğlanlar arasında qalibi müəyyənləşdirməyə çalışıblar. Maraqlı və gərgin keçən oyunların nəticələrinə əsasən Culfa rayonunun təmsilçiləri həm qızlar, həm də oğlanlar arasında qələbəni bayram ediblər. Şərur rayon komandası ikinci, Kəngərli rayon komandası isə üçüncü olub.

Sonda qalib komandalar təşkilatçılar tərəfindən diplom və kuboklarla mükafatlandırılıblar.

**✍ Ceyhun MƏMMƏDOV**

## *İtmişdir*

Baxşəliyeva Nəzmiyyə Əhməd qızının adına olan Şərur şəhəri, Nizami küçəsi 7/10 nömrəli mənzilin 2838 inventar nömrəli texniki pasportu və MH-0059312 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Fiziki şəxs (VÖEN-0200429852) Əliyev Hüseyn Əli oğluna məxsus bankda nağd əməliyyatlar aparılması üçün verilmiş pul kitabçası itdiyindən etibarsız sayılır.

* * *

Mərdanlı Aysel Mehdi qızının adına “Naxçıvan” Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 824